AZƏRBAYCAN RESPUBLİKASI
SƏHİYYƏ NAZİRLİYİ

AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA
MİLLİ OFTALMOLOGİYA MƏRKƏZİ

# AKADEMIK ZƏRIFƏ ƏLIYEVA ADINA MILLI OFTALMOLOGIYA MƏRKƏZININ KATARAKTANIN CƏRRAHIYYƏSI ŞÖBƏSI

Azərbaycanda ilk dəfə olaraq 1976-cı ildə yaranmış gözün mikrocərrahiyyəsi şöbəsi 2009-cu ildə akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin yeni kompleksi istifadəyə verildikdən sonra kataraktanın cərrahiyyəsi şöbəsi kimi fəaliyyət göstərməkdədir.





Şöbənin fəaliyyəti sferasına aşağıda adlanan əməliyyatlar daxildir:

- Anadangəlmə kataraktaların süni büllurun implantasiyası ilə fakoemulsifikasiyası
- Yetişmiş və yetişməmiş qocalıq kataraktasının intraokulyar linzanın implantasiyası ilə fakoemulsifikasiyası;
- Travmatik kataraktaların, göstərişdən asılı olaraq, intraokulyar linzanın implantasiyası ilə fakoemulsifikasiyası və ya ekstrakapsulyar ekstraksiyası;
- Fəsadlı (şəkərli diabet, uveit və s.) kataraktaların intraokulyar linzanın implantasiyası ilə fakoemulsifikasiyası;



- İfrat inkişaf etmiş kataraktaların intraokulyar linzanın implantasiyası ilə fakoemulsifikasiyası;
- Fəsadlı qlaukoma ilə katarakta zamanı antiqlaukomatoz əməliyyatla yanaşı kataraktanın fakoemulsifikasiyası və intraokulyar linzanın implantasiyası;
- Qlaukomanın müxtəlif növləri zamanı, göstərişdən asılı olaraq, antiqlaukomatoz əməliyyatlar;



- Yaş yollarında cərrahi əməliyyatlar;
- Optikorekonstruktiv əməliyyatlar.

Şöbənin əməkdaşları bütün bu əməliyyatları ən müasir texnologiyaların tətbiqi, yeni nəsil cərrahi mikroskopların (Zeiss OPMİ Lumera) və fakoemulsifikasiya aparatlarının (Milenium, Alcon Legasi, Alcon İnfinity və s.) köməyi və müasir alətlərin istifadəsi ilə yerinə yetirirlər.

